# V FƏSİL
# Dövlət qulluğu haqqında digər sənədlər

## MÜNDƏRİCAT

- Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı *(28 iyun 2005-ci il)* **s. 2**

- **Qəbul qaydaları haqqında sənədlər və çıxarışlar** **s. 3**
- Azərbaycan Respublikasının Konstitusiyasından çıxarış **s. 3**
- "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunundan çıxarış **s. 4**
- “Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı **s. 5**
- Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və təsdiq edilməsi qaydaları **s. 6**
- “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydalarının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı **s. 8**
- Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul qaydaları **s. 9**

- **Qəbul üçün tələb olunan sənədlər** **s. 12**

- Dövlət Statistika Komitəsinin məlumatı **s. 13**

# Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında? Əsasnamənin 3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvləri təyin edilsinlər:

Ziyafət Abbas oğlu Əsgərov - Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının sədri;

Əli Cavad oğlu Əhmədov-Azərbaycan Respublikası Milli Məclisinin deputatı;

Bəxtiyar Həmzə oğlu Əliyev-Azərbaycan Respublikası Milli Məclisinin deputatı;

Əli Məhəmməd oğlu Hüseynov-Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının sədri;

Lətif Hüseyn oğlu Hüseynov-Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**M.ƏLƏSGƏROV**

Bakı şəhəri, 28 iyun 2005-ci il.
N 956-IIQR.

# Qəbul qaydaları haqqında sənədlər və çıxarışlar

## Azərbaycan Respublikasının Konstitusiyasından çıxarış

**Maddə 55. Dövlətin idarə olunmasında iştirak etmək hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

# “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunundan çıxarış

**Maddə 28. Dövlət qulluğuna qəbul**

28.1. Dövlət qulluğuna vətəndaşlar müsabiqə və ya müsahibə əsasında qəbul edilirlər.

28.2. İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələr boşaldıqda, müvafiq icra hakimiyyəti orqanı həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir.

28.3. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

28.4. Müsabiqə sənədlərin qəbulu başa çatdıqdan sonra 10 gün ərzində keçirilir və vahid test imtahanından və söhbətdən ibarət olur. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

28.5. Test imtahanından müvəffəqiyyətlə çıxanlar söhbətə buraxılırlar. Test nümunələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hazırlanır və təsdiq olunur.

28.6. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən keçmiş namizədlər dövlət orqanı rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək öz qərarı ilə bir il müddətinə stajçı kimi qulluğa götürür və boş vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işinə göz qoyur və staj müddəti qurtardıqdan sonra stajçının dövlət qulluğuna götürülməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi (kontrakt) bağlamaq yolu ilə iki illik sınaq müddəti ilə işə qəbul edilir. Kontraktda sınaq müddəti ərzində işin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə işə qəbul kontraktının nümunəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən qaydada təsdiq olunur. Sınaq müddəti ərzində kontrakt pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri kontraktın şərtlərinə əməl etməklə işləmiş şəxsin daimi dövlət qulluğuna götürülməsi haqqında əmr verir və bu şəxslə müvafiq kontrakt bağlanır. Sınaq müddəti ilə bağlı digər məsələlər qanunvericiliklə müəyyən edilir.

28.7. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

# “Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi Qaydaları”nın təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

1. Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi Qaydaları təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 avqust 2001-ci il
№ 550

# Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və təsdiq edilməsi Qaydaları

**1. Bu Qaydalar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu əsasında hazırlanmış və Qanunun 11.1-ci maddəsində göstərilən dövlət orqanlarında inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələrə qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və təsdiq edilməsi qaydasını müəyyən edir.**

**2. Dövlət qulluğuna qəbul məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanmasında və təsdiq edilməsində aşağıdakı tələblərə riayət olunmalıdır:**

2.1. Test imtahanları bir mərhələdə keçirilir və namizədlər tərəfindən test tapşırıqlarının yerinə yetirilməsini nəzərdə tutur.

2.2. Test tapşırıqları iki hissədən ibarətdir:

2.2.1. birinci hissə namizədlərin peşə-ixtisas bilikləri səviyyəsinin müəyyənləşdirilməsi üçün test nümunələrindən ibarətdir;

2.2.2. ikinci hissə namizədlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi üçün müvafiq psixodiaqnostik test nümunələrindən ibarətdir.

**3. Test nümunələri aşağıdakı qaydada hazırlanır:**

3.1. Test tapşırıqlarının birinci hissəsinin (ixtisas-peşə biliklərinin yoxlanılması) test nümunələri hazırlanarkən müvafiq dövlət qulluğunu idarəetmə orqanlarının sahə bilikləri və peşə-ixtisas standartları əsas götürülməlidir.

3.2. Test tapşırıqlarının ikinci hissəsi namizədin dünyagörüşü, nizam-intizam, liderlik və kollektivdə işləmək qabiliyyəti, təşəbbüskarlıq, novatorluq, ünsiyyət mədəniyyəti və s. şəxsi keyfiyyətlərinin qiymətləndirilməsini təmin etməlidir.

3.3. Müvafiq dövlət orqanının fəaliyyət sahəsi üzrə test nümunələrinin hazırlanması üçün müvafiq dövlət orqanının rəhbəri dövlət qulluğu heyətinin ixtisasartırılmasını və yenidən ixtisaslaşmasını həyata keçirən dövlət tədris müəssisəsi (bundan sonra — tədris müəssisəsi) və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, dövlət vəzifəsinin tutulması üçün peşə-ixtisas biliklərinin minimal səviyyəsini əks etdirən standartları təsdiq edir və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (bundan sonra — TQDK) təqdim edir.

Müvafiq dövlət vəzifəsinin tutulması üçün peşə-ixtisas standartları dəyişildikdə, müvafiq dövlət orqanının rəhbəri tərəfindən bu barədə TQDK-ya məlumat verilir.

**3.4. Hazırlanan hər bir test nümunəsi aşağıdakı tələblərə cavab verməlidir:**

3.4.1. hər bir suala dörd cavab hazırlanmalıdır və bunlardan biri düzgün, üçü isə yanlış (distraktor) cavab olmalıdır;

3.4.2. nümunələrin xüsusi pasportu olmalı və bu pasportla test nümunəsində qeyd edilən düzgün cavab və onun mənbəyi (qanun, təlimat, nəşr olunmuş dərslik və s.) göstərilməlidir;

3.4.3. test nümunələri çətinlik dərəcəsindən asılı olaraq sadə, orta və mürəkkəb test kimi qiymətləndirilməlidir.

**4. Test nümunələrinin hazırlanmasını TQDK və tədris müəssisəsi təşkil edir.**

4.1. Test tapşırıqlarının birinci və ikinci hissəsi üçün hazırlanan test nümunələri test bankını təşkil edir. Test bankına təqdim edilən nümunələrin sayı test imtahanında istifadə olunanlardan ən azı 20 dəfə çox olmalıdır.

Hazırlanmış test nümunələri TQDK-da tədris müəssisəsinin əməkdaşları və müstəqil mütəxəssislər cəlb edilməklə ekspertizadan keçirilir.

4.2. Ekspertizadan keçmiş test tapşırıqlarının birinci hissəsi üçün istifadə olunan test nümunələri müvafiq dövlət orqanının rəhbəri tərəfindən təsdiq edilir.

Test tapşırıqlarının ikinci hissəsi üçün test nümunələri TQDK tərəfindən təsdiq edilir.

4.3. Təsdiq edilmiş test nümunələri saxlanılmaq üçün TQDK-nin müvafiq test bankına təhvil verilir.

4.4. Zərurət olduqda test nümunələrinin test bankına əlavə edilməsi bu Qaydalarla müəyyən edilmiş qaydada TQDK tərəfindən təşkil edilir.

4.5. TQDK bir qayda olaraq, hər il, habelə müvafiq dövlət orqanının təqdimatı əsasında lazım gəldikdə test nümunələrinin təftişini keçirir.

4.6. Test nümunələrinin hazırlanması, ekspertizadan və təftişdən keçirilməsi ilə əlaqədar bütün xərclər dövlət büdcəsindən maliyyələşdirilir.

4.7. Test nümunələrinin hazırlanması, onların ekspertizadan və yoxlanışdan keçirilməsi, müəlliflərin və mütəxəssislərin əməyinin ödənilməsi qaydası TQDK tərəfindən müəyyən edilir.

**5. Test nümunələrinin hazırlanması və təsdiq edilməsi ilə əlaqədar məxfilik rejimi TQDK və müvafiq dövlət orqanı tərəfindən təmin edilir.**

***(4 avqust 2003-cü il tarixli, 912 nömrəli fərmana əsasən əlavə və dəyişikliklərlə)***

****

# “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydalarının təsdiq edilməsi barədə”

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

1. "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 sentyabr 2001-ci il
№566

# Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları

**1. Bu qaydalarla dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul, o cümlədən müsabiqənin elan edilməsi, keçirilməsi və onun yekunlarına dair müvafiq qərar qəbul edilməsi tənzimlənir.**

**2. 16 yaşına çatmış, irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan, habelə dövlət qulluğuna girmək üçün qanunvericiliklə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları dövlət qulluğuna girmək üçün müsabiqəyə buraxılırlar.**

**3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq dövlət qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilirlər və dövlət qulluğunda boşalan vəzifələrə vətəndaşlar müsabiqə əsasında təyin edilirlər.**

**4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələr boşaldıqda müvafiq dövlət qulluğunu idarəetmə orqanı həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir. Elan kütləvi informasiya vasitələrində verilir.**

**5. Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu haqqında verilən elanda boş inzibati vəzifənin adı, bu vəzifəni tutmaq istəyən vətəndaşlar qarşısında qoyulan tələblər, o cümlədən dövlət qulluğunda işləmək üçün lazım olan şərtlər göstərilir.**

**6. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar (bundan sonra - namizədlər) aşağıdakı sənədləri təqdim edirlər:**
**ərizə, şəxsiyyəti təsdiq edən sənədin surəti, kadrların uçotunun şəxsi vərəqəsi, avtobioqrafiya, ali təhsil haqqında sənədin surəti, əmək kitabçasının surəti, ixtisas dərəcəsini təsdiq edən sənədlərin surəti, sağlamlıq haqqında arayış və dövlət qulluqçularının bəzi kateqoriyaları üçün qanunvericiliklə nəzərdə tutulmuş digər sənədlər. Sənədlərin surətləri müəyyən edilmiş qaydada təsdiq edilir.**

**7. Namizədlərin sənədlərinin qəbulu aşağıdakı qaydada keçirilir:**

7.1. Sənədlərin qəbulu müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən aparılır.

7.2. Sənədlərin qəbulu üçün müddət başa çatdıqdan sonra daxil olan sənədlər (göstərilən müddət üçün poçtla göndərilən sənədlər istisna olmaqla) qəbul edilmir.

7.3. Müvafiq dövlət qulluğunu idarəetmə orqanı sənədlərin tamlığını, onların qanunvericiliklə və bu Qaydalarla müəyyən edilmiş şərtlərə uyğunluğunu yoxlayır və sənədlərin qəbulu jurnalında qeydiyyata alır.

7.4. Təqdim olunmuş sənədlər yoxlanılarkən onlar natamam olduqda və ya bu Qaydalara uyğun olmadıqda, habelə sənədlərdə uyğunsuzluq aşkarlandıqda onlar qəbul olunmur.
Qanunvericiliklə müəyyən olunmuş qaydada namizədlərin qəbul olunmuş sənədləri onların dövlət qulluğunda işləməsinin mümkün olub-olmamasını müəyyən etmək üçün qabaqcadan yoxlanılır.
Dövlət qulluğuna girmək üçün qanunvericiliklə müəyyən olunmuş şərtlərə cavab verməyən namizədlər dövlət orqanında inzibati vəzifə tutmaq üçün müsabiqəyə buraxılmırlar.
İnzibati vəzifə tutmaq arzusunda olan namizəd müsabiqəyə buraxılmadıqda, ona dövlət qulluğunu idarəetmə orqanı tərəfindən müsabiqəyə buraxılmamasının səbəbəri izah olunan rəsmi cavab verilir.

7.5. Qeydiyyatdan keçmiş namizədlər xüsusi formalı "Namizədin ərizəsi"ni şəxsən doldururlar.

**8. Müsabiqə sənədlərin qəbulu başa çatdıqdan sonra 10 gün ərzində keçirilir, test imtahanından və söhbətdən ibarət olur.**

**9. Test imtahanı Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (bundan sonra – TQDK) tərəfindən aşağıdakı qaydada keçirilir:**

9.1. Dövlət qulluğuna qəbul üçün test imtahanı iki mərhələdən ibarətdir:
birinci mərhələdə namizədlərin ixtisas-peşə biliklərinin səviyyəsi yoxlanılır;
ikinci mərhələdə namizədlərin şəxsi keyfiyyətləri və kompüter üzrə bilik səviyyəsi yoxlanılır.

9.2. Test imtahanının keçirilməsi qaydaları, imtahanın hər mərhələsində istifadə ediləcək sualların sayı və çətinlik dərəcəsi, cavab kartlarının oxunması və qiymətləndirilmənin aparılması TQDK tərəfindən hazırlanmış normativ sənədlər əsasında tənzimlənir.

**10. Cavab kartlarının yoxlanması qurtardıqdan sonra test imtahanının nəticələri müvafiq dövlət qulluğunu idarəetmə orqanına təqdim edilir.**

**11. Test imtahanını müvəffəqiyyətlə verən namizədlərə topladıqları ballar haqqında TQDK tərəfindən təsdiq edilmiş formada müvafiq arayış verilir. Namizədlərin tələbləri əsasında test imtahanının müxtəlif mərhələlərində topladığı ballara dair 2 gün müddətində arayış verilir.**
**Test imtahanında mümkün olan baldan ən azı 80 faizini toplamış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab edilir.**

**12. Test imtahanından müvəffəqiyyətlə çıxan namizədlər söhbətə buraxılır.**

**13. Dövlət qulluğuna qəbul üçün söhbət aşağıdakı qaydada keçirilir:**

13.1. Namizədlərin dövlət qulluqçusu üçün zəruri olan keyfiyyətlərini müəyyən etmək məqsədi ilə test imtahanından müvafiq bal toplamış namizədlərlə şifahi söhbət keçirilir. Söhbət zamanı namizədə onun Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və digər normativ hüquqi aktlarını vəzifə borclarının icrası ilə əlaqədar tətbiq etmək sahəsində biliyinin və bacarığının müəyyən edilməsi üçün müvafiq suallar verilir.

13.2. Söhbətin keçirilməsi üçün müvafiq dövlət qulluğunu idarəetmə orqanı qrup yaradır. Bu qrupa müvafiq dövlət qulluğunu idarəetmə orqanının üzvləri ilə yanaşı dövlət qulluğunun müvafiq sahəsi üzrə alimlər və mütəxəssislər cəlb edilə bilər.

13.3. Müvafiq dövlət qulluğunu idarəetmə orqanı söhbətin keçirildiyi yer və vaxt barədə 2 gün əvvəlcədən namizədlərə məlumat verir.

13.4. Söhbətə buraxılan namizədlərin siyahısı söhbəti aparan qrupun rəhbərinə hər dəfə söhbət keçirilən gün söhbət başlanmazdan əvvəl verilir.

13.5. Söhbət başlanarkən qrup rəhbəri tərəfindən namizədlərin siyahısı elan edilir və qrupun üzvlərindən etirazları olub-olmaması soruşulur. Yaxın qohumluq və ya şəxsi yaxınlıq münasibətində olduqda, qrupun üzvü özünə etiraz verir. Namizəd əsaslar olduqda, qrupun hər hansı bir üzvünə etiraz edə bilər. Belə etiraz söhbət başlanmazdan əvvəl olmalıdır.

13.6. Hər bir namizədlə söhbət fərdi qaydada və ən azı 20 dəqiqə aparılır.

13.7. Söhbətin nəticələri balla qiymətləndirilir.

13.8. Söhbətlə bağlı qrup üzvləri arasında fikir mübadiləsi keçirilə bilər. Suallar və cavablar qrupun üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilir.

13.9. Söhbətin nəticələri üzrə toplanmış ballar barədə hər namizədə müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən təsdiq edilmiş formada arayış verilir.

**14. Müsabiqə zamanı namizədin toplaya biləcəyi mümkün yekun balın 80 faizi test imtahanının, 20 faizi isə söhbət nəticəsində formalaşır.**

15. Müvafiq dövlət qulluğunu idarəetmə orqanının rəhbəri ona təqdim edilən test imtahanının və söhbətin keçirilməsi barədə arayışa əsasən müsabiqənin yekununa dair müvafiq qərar qəbul edir.
Elan olunmuş müsabiqədə iştirak edərək test imtahanından və söhbətdən müvəffəqiyyətlə keçmiş, boş vəzifəni tutmaq üçün müvafiq dövlət orqanına göndərilmiş, lakin boş vəzifəyə təyin edilməmiş şəxslər üç il müddətində dövlət qulluğunu idarəetmə orqanında ehtiyat kadr kimi saxlanılır və həmin müddət ərzində dövlət orqanlarında analoji vəzifə boşaldıqda, boş vəzifəyə təyin olunmaq üçün müvafiq dövlət orqanına göndərilirlər.
Müəyyən olunmuş üç il bitdikdən sonra onlar ehtiyat kadrlar siyahısından çıxarılırlar.

16. Müvafiq dövlət qulluğunu idarəetmə orqanı və TQDK imtahanın keçirildiyi gündən bir ilədək müddətdə cavab kartlarının və söhbətlə bağlı sənədlərin saxlanılmasını təmin edir.

17. Narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 5 gün müddətində müvafiq dövlət orqanının rəhbərinə şikayət verə bilər. Müvafiq dövlət orqanının rəhbəri şikayətçinin cavab kartını və müvafiq arayışı qaldırıb, ərizəçinin iştirakı ilə müqayisə edib araşdırır.

18. Şikayətin baxılması nəticələrinə dair müvafiq qərar çıxarılır. Namizəd bu qərardan Dövlət Qulluğunu İdarəetmə Şurasına və ya bilavasitə məhkəməyə şikayət verə bilər.

***(4 avqust 2003-cü il tarixli, 912 nömrəli fərmana əsasən əlavə və dəyişikliklərlə)***

## Qəbul üçün tələb olunan sənədlər

Müsabiqədə iştirak etmək istəyən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ərizə **(formanı yüklə)**
- şəxsiyyəti təsdiq edən sənədin surəti
- kadrların uçotunun şəxsi vərəqəsi **(formanı yüklə)**
- tərcümeyi-hal
- ali təhsil haqqında sənədin surəti
- əmək kitabçasının surəti
- ixtisas dərəcəsini təsdiq edən sənədlərin surəti (olduğu təqdirdə)
- sağlamlıq haqqında arayış (AZS-086 nömrəli Tibbi arayış)
- ağ fonlu rəngli fotoşəkil 4 ədəd (2 ədəd 3 x 4, 2 ədəd 4 x 6)

Şəxsiyyəti təsdiq edən sənədin surəti və ali təhsil haqqında sənədin surəti notarial qaydada, əmək kitabçasının surəti notarial qaydada və ya şəxsin işlədiyi sonuncu təşkilat tərəfindən, ixtisas dərəcəsini təsdiq edən sənədlərin (olduğu təqdirdə) surəti isə dövlət orqanı tərəfindən təsdiq edilməlidir.

**http://www.csc.gov.az**

**Dövlət Statistika Komitəsinin məlumatı**

## Cari ilin birinci rübündə dövlət qulluğuna aid vəzifələrdə çalışan işçilərin sayı 27,3 min nəfər olmuşdur

Dövlət Statistika Komitəsindən AzərTAc-a bildirmişlər ki, cari ilin ilk üç ayında ölkədə dövlət qulluğuna aid vəzifələrdə çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 6,5 faiz artaraq 27,3 min nəfər olmuşdur. Onların 27,9 faizini qadınlar təşkil etmişdir. Dövlət qulluğunda işləyənlərin 3,2 faizi inzibati vəzifələrin 1-4-cü təsnifat üzrə, 79,9 faizi 5-9-cu təsnifat üzrə və 16,9 faizi dövlət qulluğunun yardımçı vəzifələrində çalışmışlar.

Dövlət qulluğu vəzifələrində işləyənlərin 9,7 faizi 1 ilədək; 26,1 faizi 1 ildən 5 ilədək; 23,8 faizi 5 ildən 10 ilədək; 18,9 faizi 10 ildən 15 ilədək; 21,5 faizi isə 15 və daha çox qulluq stajına malikdirlər. İşləyənlərin 57 faizi 35-54 yaşda olanlardır.

Dövlət qulluqçuları vəzifələrində işləyənlərin yaş qrupları üzrə bölgüsü aşağıdakı kimi xarakterizə olunur: 30 yaşadək olan qulluqçular 16,3 faiz, 30-34 yaşda olan qulluqçular 12,1 faiz, 35-44 yaşda olan qulluqçular 26,1 faiz, 45-54 yaşda olan qulluqçular 30,9 faiz, 55 və yuxarı yaşda olan qulluqçular 14,6 faiz təşkil edir.

5-9-cu təsnifat üzrə inzibati vəzifələrdə çalışanların 15 faizini şöbə müdirləri, 9,8 faizini şöbə müdirinin müavinləri, 8,3 faizini sektor müdirləri, 24,5 faizini baş məsləhətçilər, 5,5 faizini böyük məsləhətçilər, 14,4 faizini aparıcı məsləhətçilər və 22,5 faizini məsləhətçilər təşkil etmişdir.

Dövlət qulluğunun ştat cədvəli vəzifələri 93,3 faiz komplektləşdirilmişdir.

**“Azərbaycan”, 20 iyun 2007-ci il**